# Ədliyyə naziri Penitensiar xidmətin fəaliyyəti ilə tanış olub





Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq ədliyyə, o cümlədən penitensiar sistemin fəaliyyətinin təkmilləşdirilməsi, məhkumların və təqsirləndirilən şəxslərin hüquqlarının etibarlı təmin olunması, onların saxlanılma şəraitinin yaxşılaşdırılması və infrastrukturun müasirləşdirilməsi ilə bağlı ardıcıl tədbirlər görülür.

Paytaxtda və bölgələrdə yeni müasir penitensiar komplekslərin inşa olunaraq istifadəyə verilməsi məhkumların səmərəli islah olunaraq cəmiyyətə reinteqrasiyasına xidmət edir.

Bu sahədə görülən işlərlə tanış olmaq məqsədi ilə ədliyyə naziri Fərid Əhmədov nazirliyin Penitensiar xidmətinə baş çəkib. Əvvəlcə xidmətin baş idarəsində olan nazir yeni inşa olunmuş muzeydə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq əziz xatirəsini ehtiramla yad edib. Ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Mirsaleh Seyidov inzibati binada yaradılan müasir iş şəraiti barədə məlumat verib.

Sonra nazir təqsirləndirilən şəxslərin saxlanıldığı Bakı İstintaq Təcridxanasında və cəmiyyətin həssas qrupu olan yetkinlik yaşına çatmayan məhkumlar üçün Tərbiyə müəssisəsində, 4 saylı Qadın Cəzaçəkmə Müəssisəsində, xidmətin Təlim Mərkəzində olub. Nazir həmçinin onların fəaliyyəti, azadlıqdan məhrum edilmiş şəxslərin saxlanılma şəraiti, tibb və ərzaq təminatı, istehsalat sahələri, yeniyetmə məhkumların təlim-tədris prosesi ilə tanış olub.

Tanışlıq zamanı nazir F.Əhmədov Penitensiar xidmətin fəaliyyətinin müasir çağırışlara uyğun təkmilləşdirilməsi, rejim və davranış qaydalarına riayət edilməsi, məhkumların hüquqlarının təmin olunması, onların islah prosesinin səmərəli təşkili və digər məsələlərlə bağlı tapşırıqlarını verib.

***"Azərbaycan"***

Azərbaycan.- 2024.-14 may, № 99.- S.6.